

Kamran NƏZİRLİ

# Dostum Şirməmməd Nəzərlinin yubileyinə

Onun saç-saqqalı ağarıb; o, yetmiş beşə günlərini, aylarını, illərini və bütövlükdə ömrünü də ağarda-ağarda gəlib - alnıaçıq, üzü ağ! Bir qədər diqqətlə baxsan, gözlərində hələ də yazıb-yaratmaq alovunu görərsən; təmas qursan, alnındakı qırışları yox olar, üz-gözünə təbəssüm qonar, sözü-söhbəti səni yormaz, sevincinə də, kədərinə də təmənna güdmədən şərik olar. Xoş sözlər deməyə xəsislik etməz. Görünür, bütün bu keyfiyyətlər müdrik adamların hamısında olur, lakin yetmiş beş yaşında olan hamı müdrikliyini bu şəkildə ifadə edə bilmir. Bəlkə də, mən onu uzun müddət tanıdığımdan belə deyirəm və bəlkə də, elə Şirməmməd Nəzərli doğulandan belədi. Bəlkə, elə anadan əmdiyi südünün müqəddəsliyidi, atadan gələn qanın təmizliyindəndi bu səmimiyyətlə yoğrulan Adamın müdrikliyi! Hər halda, hamısından var! Hər halda, onun həyatına, ömrünə, yaradıcılıq eşqinə və ehtirasına, xarakterinə, şəxsiyyətinə torpaq, su, çörək, hava, meşələr, dəniz, dağlar, bulaqlar... da rəng qatıb; belə olmasaydı, yetmiş beş yaşlı ÜRƏYİ cavan qalmazdı, bu gün də gənclik ehtirasıyla döyünməzdi!

Mən qələm dostum Şirməmməd Nəzərlini qırx ilə yaxındır ki, belə tanımışam, belə görmüşəm və bundan sonra qırx il də belə görmək istəyirəm. Şirməmmədin həm şəxsiyyəti, həm də yaradıcılığı önəmlidir və dəyərləndirilməlidir. Mən bunu bugünkü ədəbi tənqidçilərin öhdəsinə buraxıram. Amma dostuma yubiley günündə təbriklərimi və ürək sözlərimlə yanaşı, bildirmək istəyirəm ki, o, hələ yaradıcılıq imkanlarının hamısından istifadə edə bilməyib, hələ bizi qabaqda onun qələmindən süzülən daha mükəmməl və daha kamil əsərləri oxumaq gözləyir. Mən onun istedad və potensialına inanıram.

Şirməmməd Nəzərli realist Azərbaycan yazıçısıdır. Xüsusilə onun pyeslərində həyat gerçəklikləri sadəcə hadisələr fonunda deyil, həm də real xarakterlər və personajların səmimiyyəti fonunda görünür. Hər hansı bir səhnə əsərinə uğur gətirən, əlbəttə, təbii və inandırıcı obrazlardır. Müəllif də, rejissor da, aktyor da özünü bu obrazlarda ifadə edir desək, yanılmarıq. Şirməmmədin səhnə və ya televiziya üçün yazdığı pyeslərində maraqlı janr cəhətlərinə rast gəlmək mümkündür. Onun süjet və kompozisiyalarında, həyatın ağrı-acılarını, müxtəlif rənglərini qabardan pyeslərində aktual problemlər qoyulur, gündəlik həyatımızı gözümüzün qabağına gətirir, cəmiyyətin mənəvi saflığına çağırışlar səslənir. Bu pyeslərdə dinin və təbiətin böyük qanunlarından bəhs olunur, insan və onun həyatıyla bağlı olan bir çox münasibətlərin gizli sirləri, düyünləri açılır. Bütün bunları onun hekayə və romanlarında da sezmək olar. Müasir müstəqil həyatımızdan doğan sevinc və kədər, sarsıntı və nəşə, milli mədəniyyətimizi qorumaq istəyi, mənəvi-



əxlaqi dəyərlər həqiqətə uyğun bir formada bədii obrazların vasitəsilə oxucuya çatdırılır. Bu obrazlar müxtəlif situasiyalara yazıçının şəxsi istəyinə görə düşmürlər, təbii olaraq görünür, hərəkət edir, gah qışqırır, gah da susurlar. Əslində isə reallıq da bundan ibarətdir. Şirməmmədin "Tac Mahal və ya iki damla göz yaşı" radio tamaşası Azərbaycan radiosunun "Qızıl fondu"na təsadüfən düşməyib. Onun "Yusifin qəmi" pyesi, "Müctəhidin yuxusu" birpərdəli pyesi, M.Füzulinin L.Tolstoyla "bərzəx görüşü"nə həsr etdiyi "Mən Haqqı sevirəm" televiziya tamaşası mətni də ədəbiyyat biliciləri tərəfindən yüksək qiymətləndirilib. O, hər zaman öz dəstxətti ilə seçilib, qısa mətləblə çox şey deyib. "Çəkilməyən film" romanı da elə film kimi bir əsərdir. Yeri gəlmişkən, qeyd edim ki, Şirməmməd həm də gözəl fotoqrafdır. Son onillikdə o, foto sənətiylə də ciddi məşğul olmuşdur. Onun Bakıda dəfələrlə fərdi fotosərgisi təşkil edilmiş, Rusiya səfirliyinin Mədəniyyət və İnformasiya Mərkəzində keçirilmiş "Moskva bakılı fotoqrafın gözü ilə"sərgisi də orijinallığı ilə seçilib.

Mən yazıçı, dramaturq, fotojurnalist dostumun bu gözəl və təravətli may günlərində Yubileyini ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayır, yaradıcılığında daha böyük uğurlar diləyirəm.

Hörmətlə...

*Bakı, 17 may 2023-cü il*